

## PROFESSOR HAMLET İSAXANLI ABİTURİYENTLƏRİN NƏTİCƏLƏRİNƏ MÜNASİBƏT BİLDİRDİ

*2017-ci il aprelin 27-də "Şərq" qəzetinin rəsmi internet səhifəsində Xəzər Universitetinin təsisçisi, Direktorlar və Qəyyumlar Şurasının sədri professor Hamlet İsaxanlının abituriyentlərin imtahan nəticələrinə münasibəti yayımlanmışdır. Yazını təqdim edirik.*

# "AMERİKADA DA YAZIB - OXUMAĞI BACARMAYANLAR VAR, AMMA..."

*"Qəbul imtahanlarında iştirak edən abituriyentlərin aşağı nəticə göstərməsinin səbəblərini bilmək üçün ilk növbədə onlara təqdim olunan testlərə baxmaq lazımdır".*

Bunu Sherg.az-a ötən il I-IV ixtisas qrupları üzrə sənəd verən abituriyentlərin 55,4 faizinin 200 baldan aşağı nəticə göstərməsinə münasibət bildirərkən Xəzər Universitetinin təsiscisi, professor Hamlet İsaxanlı deyib.

O bildirib ki, testlərin çətinlik dərəcəsindən çox şey asılıdır:

*"Testləri elə hazırlayarlar ki, abituriyentlərin 20,30, 40 faizi kəsilə bilər. Ona görə ciddi elmi araşdırma lazımdır ki, testlərin səviyyəsi müəyyən olunsun. Bundan başqa, dəyişmələr inqilabi yolla olmur. Düşünmürəm ki, qısa zaman içərisində orta məktəblərdə təhsilin keyfiyyətini mühüm dərəcədə artırmaq olsun. Bu səbəbdən böyük dəyişiklik olmayanda, ciddi islahat aparılmasa, ciddi nəticə də gözləmək olmaz".*

Azərbaycanda 9-11-ci siniflərdə oxuyan 92 şagirdin yazıb-oxuya bilməməsinə gəlincə, ekspert düşünür ki, heç yazmağı bacarmayan yəqin ki, yoxdur:

*"Ola bilər həmin şagirdlər zəif yazı yazıb, savadsız nəticə göstəriblər. Hər halda, hamı hərfləri tanıyar, yazmaq hərfləri öyrənməyə deyilir. Hərfləri öyrənmək üçün ciddi istedad tələb olunmur. Amma tək-tük insanlar var ki, qeyri-adi dərəcədə savadsız olurlar. Onlar dünyanın hər yerində var. Hətta təhsil cəhətdən inkişaf etmiş Amerikada da yazıb-oxumağı bacarmayanlar var. Amma , bu, o demək deyil ki, amerikalılar savadsızdır. Az sayda insanın yazıb-oxuya bilməməyi mümkün olan hadisədir".*

**Aysel Aslan**

http://www.sherg.az/site/id-30128/"Amerikada_da_yazıb-oxumağı_bacarmayanlar_var,_<font_color=red>amma..."</font>#.WQLbvkXyjDc;

http://mektebgushesi.az/2017/04/27/hamlet-isaxanli-amerikada-da-yazib-oxumagi-bacarmayanlar-var-amma/